**2020-ci ilin xronikası**

**23 yanvar** tarixində Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərində yerləşən Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində "Bergen Anlaşmasının yeni redaksiyasının hazırlanması üzrə İşçi Qrupunun iclas"ı keçirilmişdir.



**27 yanvar** tarixində Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərində yerləşən Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində ÜGT-nin Avropa Regionunun Potensialın Gücləndirilməsi üzrə Milli Əlaqələndiricilərinin 3-cü iclası keçirilmişdir. Tədbirdə ÜGT-nin əməkdaşları ilə yanaşı, qurumun Avropa Regionu üzrə üzv dövlətlərinin 20-yə qədər nümayəndəsi iştirak etmişdir.

**27 yanvar** tarixində TDƏŞ üzv dövlətlərin kinologiya sahəsində qarşılıqlı əməkdaşlıq və təcrübə mübadiləsi üzrə seminarı keçirilmişdir**.** Tədbirdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına (TDƏŞ) üzv dövlətlərin gömrük orqanlarının kinoloji xidmətlərinin mütəxəssisləri iştirak etmişdir.

**28 yanvar** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi İdarəsinin direktoru Taeil Kangla görüşmüşdür. Görüşdə, eyni zamanda, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.



**28 yanvar** tarixində Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi İdarəsinin direktoru Taeil Kang Bakıya səfəri çərçivəsində Dövlət Gömrük Komitəsinin Akademiyasında olmuşdur. Qonaq Akademiyanın infrastrukturu ilə, eləcə də DGK-nın Kinoloji Mərkəzi və «Azərterminalkompleks» Birliyi ilə tanış olmuşdur.

**3 fevral** tarixində Türkiyə Respublikasının Ədirnə şəhərində ABŞ Dövlət Departamentinin təşkilatçılığı ilə "Gömrük xəttində xidmət edən zabitlər üçün sərhədlərin mühafizəsi" mövzusunda təlim keçirilmişdir. Tədbirdə Türkiyənin gömrük xidmətinin və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin əməkdaşları iştirak etmişdir.

**4 fevral** tarixində Dövlət Gömrük Komitəsində "Sərnişinlərə dair İlkin Məlumat və Sərnişin Adlarının Qeydiyyatı üzrə dördtərəfli texniki görüş" keçirilmişdir. Görüşdə Dövlət Gömrük Komitəs sədrinin müavini, gömrük xidməti general-mayoru Cavad Qasımov, Baş İdarə rəisləri, aidiyyəti qurumların rəhbərləri, Böyük Britaniyanın Sərhəd Mühafizəsi Direktoratlığının "Hunter" layihəsinin regional rəhbəri Ceyn Vuli, layihənin Azərbaycan üzrə rəhbəri Ancela Volmsli, BMT-nin Terrorla Mübarizə Bürosunun əməkdaşı Simon Deynan, BMqT-nin Azərbaycan nümayəndəliyinin rəhbəri Vladimir Qorçiyev iştirak etmişlər.

**4 fevral** tarixində Dövlət Gömrük Komitəsinin Akademiyası və Beynəlxalq Gömrük Universitetləri Şəbəkəsinin (INCU) birgə təşkilatçılığı ilə Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində IV Beynəlxalq Qış məktəbinin açılış mərasimi olmuşdur. Tədbirdə Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi Qulu Novruzov, ÜGT-nin Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisinin rəhbəri Əsər Çəngəl, Beynəlxalq Gömrük Universitetləri Şəbəkəsinin Katibliyinin rəhbəri Mixail Kaşubski, Dövlət Gömrük Komitəsinin Akademiyasının əməkdaşları, təlimçilər, yerli və xarici universitetlərin tələbələri iştirak etmişlər.

**5 fevral** tarixində İran İslam Respublikasının Biləsuvar gömrük-keçid məntəqəsində Azərbaycan və İran gömrük xidmətlərinin nümayəndələri arasında görüş olmuşdur. İran tərəfinin dəvəti əsasında baş tutan Azərbaycan Respublikasını Cənub Ərazi Baş Gömrük İdarəsi "Biləsuvar" gömrük postunun rəisi Ceyhun İbrahimovun, İran İslam Respublikasını isə bu ölkənin "Biləsuvar" gömrük-keçid məntəqəsinin rəhbəri Ramin Zehirinin rəhbərlik etdiyi nümayəndə heyətləri təmsil etmişdir.

**13 fevral** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev İsrail Dövlətinin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Corc Dikin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.



**19 fevral** tarixində Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskasla Dövlət Gömrük Komitəsinin Akademiyasında görüş keçirilmişdir. Görüşdə gələcək əməkdaşlıqla bağlı müzakirələr, həmçinin qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

**19 fevral** tarixində Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərində yerləşən Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində Beynəlxalq humanitar hüquq sahəsində seminar keçirilmişdir. Dövlət Gömrük Komitəsi və Dövlət Sərhəd Xidməti əməkdaşları üçün reallaşdırılan seminar Amerika Birləşmiş Ştatlarının Beynəlxalq Hüquqi Araşdırmalar üzrə Müdafiə İnstitutu tərəfindən təşkil edilmişdir.

**21 fevral** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev Litvanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Eqidius Navikas ilə görüşmüşdür. Görüşdə qarşılıqlı əlaqələrin perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.




**2 mart** tarixində Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərində yerləşən Potensialın Gücləndirilməsi üzrə Avropa Regionla Ofisində "X-Ray (Rentgen) təsvirlərinin təhlili" mövzusunda dördgünlük təlim keçirilmişdir. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə ABŞ-ın İxraca nəzarət və müvafiq sərhəd təhlükəsizliyi proqramı layihəsi çərçivəsində reallaşdırılan təlimdə Komitənin aidiyyəti struktur bölmələri, ərazi və ixtisaslaşmış gömrük idarələri və Dövlət Gömrük Komitəsinin Akademiyasının əməkdaşları iştirak etmişdir. Təlimlər ABŞ-ın İxraca nəzarət və müvafiq sərhəd təhlükəsizliyi proqramının təlimçiləri Devid Dyuk və Riçard Kastillo tərəfindən aparılmışdır.

**2 mart** tarixində Azərbaycan gömrüyünün informasiya texnologiyalarının tətbiqi sahəsindəki təcrübəsini öyrənmək məqsədilə Ukrayna və Moldova gömrükçüləri ölkəmizdə səfərdə olmuşlar. Səfər Ukrayna ilə Moldova arasındakı sərhəd-buraxılış məntəqəsində videonəzarətin reallaşdırılmasına dair layihə çərçivəsində Beynəlxalq Miqrasiya Təşkilatının dəstəyi ilə həyata keçirilmişdir.

**3-11 mart** tarixlərində Ümumdünya Gömrük Təşkilatı tərifindən Dövlət Gömrük Komitəsində və Komitənin strukturuna daxil olan müvafiq qurumlarda Risklərin İdarəedilməsi üzrə Diaqnostik Missiyanı həyata keçirilmişdir. Bu məqsədlə Ümumdünya Gömrük Təşkilatının ekspertləri Oğuz Onal, Sertac Yapıcı və Ömər Koç respublikamızda səfərdə olmuşlar.

**3 mart** tarixində ABŞ-ın İxrac Nəzarəti və Sərhəd Təhlükəsizliyi Proqramının Türkiyə və Azərbaycan üzrə müşaviri Keys Robertslə Dövlət Gömrük Komitəsinin Akademiyasında görüş keçirilmişdir. Görüşdə, həmçinin gələcək əməkdaşlıq imkanları, Akademiya ilə ABŞ

universitetləri arasında qarşılıqlı mübadilə və digər maraq doğuran məsələlər müzakirə olunmuşdur.

**4 mart** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev Səudiyyə Ərəbistanı Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Haməd bin Abdullah bin Səud bin Xudeyr ilə görüşmüşdür. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılmışdır.




**6 mart** tarixində Amerika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə texniki yardımı çərçivəsində gömrük orqanları əməkdaşları üçün rentgen avadanlıqlarının və yoxlama-baxış sistemlərinin istismarı üzrə təlimlər keçirilmişdir. Təlimlərdə Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsi, Bakı Baş Gömrük İdarəsi, Enerji Resursları və Dəniz Nəqliyyatında Baş Gömrük İdarəsi, Cənub Ərazi Baş Gömrük İdarəsi və "Azərterminalkompleks" Birliyi üzrə ümumilikdə 33 gömrük əməkdaşı iştirak etmişdir.

**22 aprel** tarixində Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriyanın sədrliyi ilə, koronavirus (Covid 19) pandemiyasının davam etdiyini nəzərə alaraq yaranmış mövcud şəraiti qiymətləndirmək, Ümumdünya Gömrük Təşkilatının işinin davam etdirməsinə imkan verəcək alternativ mexanizmləri öyrənmək məqsədilə videokonfrans keçirilmişdir. Konfransda ÜGT şurasının sədri Dikson Kateşumbva, ÜGT-nin Avropa regionu üzrə sədr müavini, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev, eləcə də Asiya və Sakit Okean regionu üzrə sədr müavini Pranab Kumar Das, Amerika və Karib regionu üzrə sədr müavini Ramirez Paniaqua, Şərqi və Cənubi Afrika regionu üzrə sədr müavini Filiso P. Valaşia, Yaxın Şərq və Şimali Afrika regionu üzrə sədr müavini Əhməd Əl Xəlifə, Qərbi və Mərkəzi Afrika regionu üzrə sədr müavini Toumani Sanqare iştirak etmişlər.



**27 aprel** tarixində Dövlət Gömrük Komitəsi və İran İslam Respublikasının Gömrük İdarəsinin nümayəndə heyətləri arasında onlayn rejimdə müzakirələr keçirilmişdir. Azərbaycan nümayəndə heyətinə Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-mayoru Cavad Qasımov rəhbərlik etmişdir. Virtual görüşdə iki ölkə arasındakı gömrük-keçid buraxılış məntəqələrində yükdaşımaların koronavirus (Covid-19) pandemiyası ilə əlaqədar tətbiq edilən rejimə uyğunlaşdırılması, malların və nəqliyyat vasitələrinin sərhədkeçmə proseslərinin tənzimlənməsi, eləcə də bir sıra məsələlər müzakirə edilmişdir.

**1 may** tarixində Dövlət Gömrük Komitəsinin Akademiyası Rusiya Federasiyasının Prezidenti yanında Rusiya Milli İqtisadiyyat və Dövlət İdarəçiliyi Akademiyasının (RANEPA) Şimal-Qərb İdarəetmə İnstitutunun təşkilatçılığı ilə "Universitetlərin koronavirusa cavabı: Yeni təhsil mühitində davamlı inkişaf və akademik əməkdaşlığı necə təmin etmək olar?" mövzusunda keçirilən beynəlxalq onlayn konfransda iştirak etmişdir.

**6 may** tarixində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına (Türk Şurası) üzv və müşahidəçi ölkələrin iqtisadiyyat nazirləri və gömrük xidməti rəhbərlərinin videokonfrans formatında müzakirələri keçirilmişdir. Videokonfransın məqsədi aprelin 10-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü və sədrliyi ilə videokonfrans formatında keçirilmiş Türk Şurasının fövqəladə Zirvə görüşündə dövlət başçıları tərəfindən qaldırılan məsələlərin icrası üçün birgə fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi olmuşdur.

**8 may** tarixində "Caspian European Club"un təşkilatçılığı ilə onlayn qaydada beynəlxalq biznes forumu keçirilmişdir. Forumda Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-mayoru Cavad Qasımov, Gürcüstan Gömrük Xidməti rəhbərinin birinci müavini Kaxaber Baramiya, Azərbaycan, Qazaxıstan və Gürcüstanın diplomatik nümayəndəliklərinin rəhbərləri və əməkdaşları, bu ölkələrdə fəaliyyət göstərən logistika şirkətlərinin, nəqliyyat qurumlarının və sahibkarlıq subyektlərinin nümayəndələri iştirak etmişlər.

**16 may** tarixində Dövlət Gömrük Komitəsində Azərbaycan Respublikası Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyasının "Sərhəddə ticarət" indikatoru üzrə işçi qrupunun onlayn iclası keçirilmişdir. İclasda Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-leytenantı İsmayıl Hüseynov, Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-mayoru Cavad Qasımov, Komitənin aidiyyəti qurumlarının rəhbərləri, İqtisadiyyat, Ədliyyə nazirlikləri, Azərbaycan Milli Elmlər Akademiyası, Qida Təhlükəsizliyi, Kiçik və Orta Biznesin İnkişafı agentlikləri, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Azərbaycan-Fransa Ticarət və Sənaye Palatası, "Ekvita", "BM Morrison Partners" və "Ernst & Young Azerbaijan" şirkətlərinin nümayəndələri iştirak etmişlər.

**17-19 iyun** tarixlərində Dövlət Gömrük Komitəsində Birləşmiş Millətlər Təşkilatı Narkotiklər və Cinayətkarlıq İdarəsinin və Ümumdünya Gömrük Təşkilatının birgə layihəsi olan "Konteyner daşımalarına nəzarət üzrə qlobal proqram" çərçivəsində Strateji Ticarət və İxrac Nəzarəti mövzusunda onlayn təlim keçirilmişdir. Dövlət Gömrük Komitəsinin aidiyyəti strukturlarının əməkdaşları üçün keçirilən təlimin əsas məqsədi strateji ticarət, eləcə də ixrac nəzarətinə düşən malların identifikasiya olunması və onların qanunsuz dövriyyəsinin qarşısının alınması istiqamətində potensialın yüksəldilməsi olmuşdur.

**20 iyun** tarixində ATƏT-in "Xəzər dənizi regionunda yaşıl limanların və bağlantıların təşviqi" layihəsinin ikinci fazasının onlayn təqdimatı keçirilmişdir. Dövlət Gömrük Komitəsinin baş idarə rəisləri, ATƏT nümayəndələri, Trans-Xəzər nəqliyyat marşrutu üzrə əsas nəqliyyat və

ticarət iştirakçıları, Azərbaycan, Qazaxıstan, Türkmənistan, Gürcüstan, Türkiyənin müvafiq qurumları və limanlarının təmsilçilərinin iştirakı ilə keçirilən onlayn müzakirələrdə ticarət məsələlərinin daha da asanlaşdırılması, mövcud maneələrin aradan qaldırılması, sözügedən layihəyə struktur yanaşma və digər mövzularda fikir mübadiləsi aparılmışdır.

**9 iyul** tarixində "Azərbaycan və Gürcüstan arasında "Qırmızı Körpü" sərhəd-keçid məntəqəsinin inkişafına dəstək" layihəsi çərçivəsində alınmış nəqliyyat vasitələrinin Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (BMTİP) tərəfindən Dövlət Gömrük Komitəsinə təhvil verilməsi mərasimi keçirilmişdir. Onlayn formada keçirilən mərasimdə Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev, BMT İnkişaf Proqramının rezident nümayəndəsi Alessandro Frakassetti iştirak etmişlər.



**10 iyul** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev ilə Avropa İttifaqının Beynəlxalq və Ümumi İşlər üzrə direktoru Sabine Henzler arasında videokonfrans formatında görüş keçirilmişdir. Dövlət Gömrük Komitəsinin Ümumdünya Gömrük Təşkilatının Avropa Regionu üzrə rəhbəri qismində təmsil olunduğu görüşdə "Bergen Anlaşması"nın müddəaları ilə bağlı fikir mübadiləsi aparılmışdır.

**20 avqust** tarixində Ümumdünya Gömrük Təşkilatının Gömrük Əməkdaşlıq Şurası sədrinin vəzifələrinin müvəqqəti icraçısı və şura sədrinin müavinlərinin iştirakı ilə videokonfrans formatında iclası keçirilmişdir. İclasda ÜGT-nin Baş katibi Kunio Mikuriya, Şura sədrinin vəzifələrinin müvəqqəti icraçısı Əhməd Əl Xəlifə və Şura sədrinin ÜGT-nin beş regionu üzrə sədr müavinləri iştirak etmişlər. Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev videokonfransda ÜGT-nin Avropa Regionu üzrə sədr müavini qismində iştirak etmişdir.

**3 sentyabr** tarixində Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq (CAREC) Proqramı çərçivəsində "Elektron və kağızsız ticarət" mövzusunda vebinar keçirilmişdir. Vebinarda Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsini Gömrük Nəzarətinin Təşkili və Ticarətin Asanlaşdırılması Baş İdarəsinin rəisi Səməd Qaralov və Komitənin aidiyyəti struktur bölmələrinin nümayəndələri təmsil etmişdirlər.

**8 sentyabr** tarixində Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq (CAREC) Proqramı çərçivəsində videokonfrans formatında Gömrük Əməkdaşlıq Komitəsinin 19-cu iclası keçirilmişdir. İclasda Azərbaycan, Çin, Əfqanıstan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Monqolustan, Pakistan, Tacikistan, Türkmənistan, Özbəkistan gömrük xidmətlərinin nümayəndələri, Asiya İnkişaf Bankı, CAREC İnstitutu, CAREC katibliyi, o cümlədən Ümumdünya Ticarət Təşkilatı, Beynəlxalq Yol Nəqliyyat Birliyi, Global Express Assosiasiyası, Beynəlxalq Ticarət Mərkəzinin ekspertləri iştirak etmişdirlər.

**14 sentyabr** tarixində Azərbaycan Respublikası, Əfqanıstan İslam Respublikası və Türkmənistan arasında ticarət və investisiya, energetika, nəqliyyat və logistika, telekommunikasiya və informasiya texnologiyaları, gömrük və sərhəd məsələləri sahələrində əməkdaşlığın genişləndirilməsi və dərinləşdirilməsi üzrə Yol Xəritəsinin müzakirəsi məqsədilə videokonfrans formatında 27 iyul tarixində keçirilmiş görüşün davamı olaraq, Azərbaycan Respublikası, Əfqanıstan İslam Respublikası və Türkmənistanın alt işçi qrupu rəhbərlərinin videokonfrans formatında növbəti iclası keçirilmişdir.

**15 sentyabr** tarixində "Azərbaycanda özəl sektorun diaqnostikasının hazırlanması" mövzusunda onlayn görüş keçirilmişdir. Görüşdə Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-mayoru Cavad Qasımov, Dünya Bankı və Dünya Bankı qrupuna daxil olan Beynəlxalq Maliyyə Korporasiyasının hava daşımaları, logistika, gömrük məsələləri üzrə ekspertləri, eləcə də Komitənin aidiyyəti struktur bölmələrinin nümayəndələri iştirak etmişdir.

**21 sentyabr** tarixində Koreya Gömrük İdarəsinin Gömrük modernləşdirilməsi - məsləhətləşmə layihəsi ilə bağlı onlayn iclas keçirilmişdir. Tədbirdə Dövlət Gömrük Komitəsinin rəhbər vəzifəli əməkdaşları, Koreya Gömrük İdarəsi Yeni Texnologiyalar və Qlobal Layihələr departamentlərinin informasiya-kommunikasiya texnologiyaları üzrə məsləhətçiləri, eləcə də Komitənin aidiyyəti struktur bölmələrinin nümayəndələri iştirak etmişdir.



**25 noyabr** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev İtaliya Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Auqusto Massari ilə görüşmüşdür. Görüşdə, qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

**16 dekabr** tarixində "Ümumi Tranzit Proseduru Konvensiyası, Mallarla Ticarətdə Sənədləşmənin Sadələşdirilməsi Konvensiyası və Yeni Kompüterləşdirilmiş Tranzit Sisteminə (YKTS) qoşulmaq prosesində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinə Dəstək" tvinninq layihəsinin idarəedici komitəsinin onlayn formatda 2-ci iclası keçirilmişdir. Görüşdə layihə icra qrupunun üzvləri, Aİ-nin Azərbaycan üzrə Nümayəndəliyinin və İqtisadiyyat Nazirliyinin nümayəndələri iştirak etmişlər.

**28 dekabr** tarixində Türkiyə Respublikasının Ticarət Nazirliyinin mütəxəssisləri tərəfindən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin əməkdaşları üçün "Beynəlxalq poçt göndərişləri və elektron ticarət sahəsində gömrük nəzarətinin həyata keçirilməsi, o cümlədən rəsmiləşdirmə prosedurları" mövzusunda videokonfrans formatında seminar keçirilmişdir.